arasındakı münasibət məhz faiz dərəcəsindən asılıdır. Əgər yüksək faiz dərəcəsi mövcud olarsa, maliyyə yatırımlarının həcmi artır, əksinə faiz dərəcələri aşağı olarsa isə qeyri-maliyyə aktivlərin artımı baş verir. Yəni, gələcək iqtisadi fəaliyyət nöqteyi-nəzərindən əldə olunan gəlirin səviyyəsi faiz dərəcəsindən yuxarı olarsa, o zaman investisiyaların həcmi artır. Onda investiya yatırımından əldə olunan gəlirin, faiz dərəcəsinə görə əldə olunan gəlirdən artıq olması, əmanət sahiblərini maksimum artıma meyllənməyə sövq edir. Əmanət sahibləri əmanətlərini real kapitala çevirməkdə maraqlı olurlar. Gəlirə nisbətən faiz dərəcəsinin az olması isə kredit götürməyə stimul verir. Hansı ki, götürülən kreditlər investisiyaya istiqamətlənir.

Ingilis iqtisadçısı C.M.Keyns investisiya yatırımının səmərəliliyinin az olmasını tələbin artımına əngəl törədən amillərdən biri kimi qeyd edirdi. Keyns tələbin genişləndirilməsində həlledici rol oynayan investisiyaları aşağıdakı yollarla artırılmasını qeyd edirdi:

- Bankların, kredit təşkliatlarının kredit faizlərini aşağı salmaqla yatırımların son səmərəliliyinin yüksəlməsinin təsiri altında investisiya yatırımları artacaq;
- dövlət xərclərini, yəni dövlət kapital qoyuluşlarını artırmaq və əmtəələrin dövlət tədarükatını genişləndirmək yolu ilə;
- kapital qoyuluşlarının səmərəliliyinin yüksəldilməsi yolu ilə. Keyns sübut edir ki, sonunda istehsal genişlənir və işsizlik azalır və məşğulluq səviyyəsi yüksəlir.

**Ədəbiyyat:**

1. “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. 13 yanvar 1995-ci il, № 952

2. M.C.Atakişiyev, R.N.Nurəliyev, N.H.Abbasov. “İnvestisiya fəaliyyətinin təşkili” Dəsrlik, Bakı. 2012. 256 səh.

# ƏLVERİŞLİ BİZNES MÜHİTİNİN YARADILMASI XÜSUSİYYƏTLƏRİ

*Səfərova Təranə Allahverdi qızı*
*Mingəçevir Dövlət Universiteti, Azərbaycan*

Son illər biznes mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən iqtisadi islahatlar , sahibkarlığın dövlət tənzimlənməsi və dəstəklənməsi sahəsində qəbul edilmiş qərarlar,qanunlar, dövlət proqramları ölkədə azad rəqabətə əaslanan sahibkarlığın inkişafı məqsədlərinə xidmət edir.Burada başlıca məqsəd biznes mühitinin yaxşılaşdırılması və sahibkarlığın inkişafıdır. Hər bir ölkədə sosial iqtisadi inkişafa dair dövlət proqramları çərçivəsində müxtəlif təyinatlı sənaye müəssisələri yaradılır və işə salınmaqla genişmqyaslı infrastruktur layihələri reallaşdırılır.

Biznes və investisiya mühiti davamlı sürətdə yaxşılaşdırılır . İqtisadiyyatın ayrı-ayrı sektorlarının inkişafının təmin edilməsi məqsədilə yerli və xarici investisiyalar üçün əlverişli şərait yaradılır. Bütün bunlar özəl sektora, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi və yaradılan makroiqtisadi sabitlik ölkədə güclü sənaye sektorunun formalaşdırılması, innovatik və yüksək texnologiyaları əsasında rəqabətqabiliyyətli sənaye istehsalı üçün əlverişli şərait yaradır.Əlverişli mühitin mövcudluğu iqtisadiyyatın sahələrinin davamlı inkişafı ixrac qabiliyyətinin ,idxalı

əvəz edən məhsullarının istehsalının artırılması məşğulluğunun təmini, investisiyaların cəlbi kimi yerinə yetirilməsi baxımından əhəmiyyət daşıyır.

İqtisadiyyatın bütün sahələrini əhatə edən islahatlar sahibkarlığın inkişafına eyni zamanda biznes mühitinin yaxşılaşdırılmasına müsbət təsir göstərir.

Ölkəyə investisiyaların cəlb edilməsi üçün biznes mühitinin yaxşılaşdırılması istiqamətində islahatlar aparılmalıdır.Maliyyə nəzarəti sahəsində uçotun şəffaflaşdırılması büdcə yığımının artırılması sənaye müəssisələrinin ixracı üzrə prosedurların sadələşdirilməsi məqsədi ilə struktur dəyişikikləri təkmilləşdirilməlidir.

Sahibkarlıq fəaliyyətinə başlamaq üçün lisenziya tələb olunan fəaliyyət növlərinin sayı azaldılmalı, lisenziyalar müddətsiz müəyyən olunmalıdır.

Müasir dövrdə sahibkarların fəaliyyətinə əsassız və qanunsuz müdaxilələrin, bürokratik yoxlamaların aradan qaldırılması, liberal biznes mühitinin formalaşdırılması da xüsusi diqqət mərkəzində olmalıdır.

Sahibkarlar fəaliyyətinə süni müdaxilələrin aradan qaldırılması , antiinhisar və korrupsiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi bu gün sahibkarlar tərəfindən razılıqla qarşılanır.Sahibkarlığın inkişafında sahibkarlara maliyyə yardımı da xüsusi əhəmiyyətə malikdir.

Qeyd edək ki, artıq sahibkarlığın dəstəklənməsi üçün xarici ölkələrin və beynəlxalq təşkilatların maliyyələşdirdikləri layihələr də sahibkarlığın inkişafında müstəsna rol oynayır.

Hər bir ölkədə sahibkarlığın davamlı inkişafı məqsədilə hüquqi tənzimləmə,qanunvericilik bazasının təkmilləşdirilməsi yolu ilə biznes mühitinin yaradılması əsas istiqamətlərdən biridir. Qeyd edək ki, iqtisadi azadlıq siyasəti yüksək qiymətləndirilən ölkələr ticarət və sahibkarlığın inkişafı üçün əlverişli şəratin mövcudluğu ilə fərqlənir. Belə əlverişli mühit iqtisadi artım və ictimai rifahın yüksəldilməsinə əhəmiyətli dəstək verən amil kimi çıxış edir. İqtisadi azadlıq indeksi investorun maraqlqrını nəzərə almaqla,onlar üçün ölkənin iqtisadi azadlıq faktoruna təsir edən amillər üzrə baş verən dəyişikliklər baxımından da əhəmiyətli məlumat mənbəyidir. Fikrimizcə, bütün qeyd etdiyimiz amillər ölkədə sahibkarlığın inkişafına təsir edən əlverişli biznes mühitinin yaradılmasnda müstəsna əhəmiyyətə malikdir.

Müasir dövrdə ölkədə sahibkarlığın inkişafı ilə bağlı strateji yanaşmalar daha çox prioritetlik təşkil etməkdədir. Belə ki, dövlət tərəfindən iqtisadiyyat sahələrinin inkişafının qlobal iqtisadi çağırışlara uyğunlaşdırılması məqsədilə məhsuldar mexanizmlərin işlənib hazırlanması və tətbiqinə ciddi önəm verilir. Bütün bunlarla yanaşı, özəl sektorun, sahibkarlığın inkişaf etdirilməsi məsələlərinə, biznes mühitinin yaxşılaşdırılmasına isə daha strateji səviyyədə yanaşmalar diqqət çəkir.

Son illərdə, ölkədə sahibkarlığın inkişafının yeni təşkilati-iqtisadi modellərinin, o cümlədən xüsusi iqtisadi zonaların, sənaye parklarının, sənaye məhəllələrin və aqroparkların yaradılmasına böyük önəm verilməlidir.Sahibkarlıq subyektlərinə vergi yükünün azaldılması mexanizmlərinin işləkliyi və sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsi ölkədə özəl sektorun inkişafını xeyli intensivləşdirir.Eyni zamanda, sahibkarların maliyyə resurslarına çıxış imkanlarının artırılması məqsədilə institusional tədbirlər görülməli, bu sahədə qanunvericilik təkmilləşdirilmiş və institusional mexanizmlər tətbiq olunmalıdır.

**Ədəbiyyat:**

1. AbbasovA. B. Sahibkarlıq fəaliyyəti:növləri,təşəkkülü və inkişaf problemləri. Bakı, 1998.
2. Əlirzayev Ə.Q Azərbaycanda sahibkarlığın inkişaf problemləri və həlli yolları: nəzəriyyə və təcrübə. Bakı, 2000.
3. “Sahibkarlığın inkişafının əsas prioritetləri və qiymətləndirmə fəaliyyətinin təkmilləşdirilməsinin aktual məsələləri” mövzusunda II beynəlxalq konqress materialları. Bakı, 2003.
4. Уткин Э.А. Этика бизнеса: Учеб. для вузов. М., Теис, 2003.
5. Ефремов В.С. Стратегическое планирование в бизнес-системах. Москва. 2001.

## AZƏRBAYCANDA COVİD-19 PANDEMİYASI DÖVRÜNDƏ REGİONLARDA İNSAN POTENSİALINDAN İSTİFADƏNİN SOSİAL-İQTİSADİ PROBLEMLƏRİ

*Süleymanova Təranə Əhməd qızı*
*Mingəçevir Dövlət Universiteti, Azərbaycan*

2019 – cu ildən dünyanı öz cənginə alan Covid-19 pandemiyası iqtisadiyyatın bütün sahələrində öz təsirini hələ də göstəməkdədir. Pandemiya dövründə Azərbaycan iqtisadiyyatında kifayət qədər problemlər üzə çıxdı. Bu təsirlərin aradan qaldırıması və sosial müdafiənin təmin olunması dövlət siyasətinin prioritet istiqaməti hesab edilmişdir.

Azərbaycanda COVID-19 pandemiyası özünü göstərməmiş Azərbaycan ilkin tədbirlərini görməyə başladı. Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı və Qərargah üzvləri tərəfindən hər gün mətbuat vasitəsi ilə ictimaiyyət məlumatlandırıldı. Azərbaycan Respublikasının Prezidentinin 2020-ci il 19 mart tarixli Fərmanı ilə “Koronavirusla Mübarizəyə Dəstək Fondu” yaradıldı. Fondun yaradılmasında məqsəd Azərbaycan Respublikasında koronovirus pandemiyası ilə mübarizə aparmaq istiqamətində yayılmanın qarşısını almaq və həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərmək idi. Əhalinin sağlamlığının qorunması, dünya standartlarına uyğun tibbi yardımla təmin olunması Respublikamızda həyata keçirilən sosial-iqtisadi siyasətin prioritetlərindəndir. Dünyada yayılan yeni növ koronavirus infeksiyasının coğrafiyasının genişlənməsi ölkəmizdə də bu xəstəliyə yoluxma hallarının qarşısının alınması məqsədilə müvafiq preventiv və profilaktik tədbirlərin gücləndirilməsini zəruri edirdi. Bu məqsədlə, əhalinin müxtəlif təbəqələrinin, o cümlədən sahibkarlıq subyektlərinin bu növ tədbirlərə dəstək verməsi, sosial həmrəylik nümayiş etdirməsi görülən işlərin səmərəliliyinə bilavasitə təsir edən xüsusi əhəmiyyətli məsələlərdən olmaqla, korporativ sosial məsuliyyəti, dövlət – vətəndaş birliyini əks etdirən əsas faktorların bariz göstəricisidir.

Qərargahın göstərişlərinə əsasən qabaqlayıcı tədbirlər görüldü: məsafə saxlamaq, əyani təmaslardan qaçmaq, sosial müdafiə, sanitar-gigiyena qaydalarına ciddi əməl etmək.